**Audit, uçot və statistika**
**Audit, Accounting and Statistics**
**Аудит, учет и статистика**

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

**DOI: 10.59610/bbu4.2024.4.1**

*Cəfərov Elxan Orxan oğlu,*
*iqtisad emləri namizədi,*
*"İqtisadiyyat və texnoloji elmlər" kafedrasının dosenti,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: elkhan.jafarov@inbox.ru;*

*Niftəliyev Sultan Qurban oğlu,*
*doktorant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: sultanniftaliyev95@gmail.com*
*© Cəfərov E.O., Niftəliyev S.Q., 2024*

**UOT: 336.74:657**
**JEL: M41, M48, G18**

# KRİPTOVALYUTALARIN UÇOTUNUN TƏNZİMLƏNMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi -** kriptovalyuta mübadilə əməliyyatları üzrə Azərbaycanda hüquqi tənzimləmələrin yaradılması üçün istiqamətlərin təklif edilməsidir.

**Tədqiqatın metodologiyası –** kriptovalyutaların mübadilə əməliyyatları üzrə ABŞ və Birləşmiş Krallıqda toplanmış təcrübələr müqayisəli analiz və digər metodlar vasitəsilə öyrənilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** kriptovalyuta mübadiləsi əməliyyatları dünya kapital bazarının qloballaşması şəraitində maliyyə münasibətlərinin inkişafına təkan verən əsas vasitələrdən biridir.

**Tədqiqatın nəticələri –** ABŞ və Birləşmiş Krallıqda kriptovalyuta əməliyyatları üzrə əldə olunmuş təcrübələrə əsasən onların Azərbaycanda inkişaf yolları müəyyən edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi –** Azərbaycanda kriptovalyutaların tənzimlənməsi ilə bağlı müvafiq ədəbiyyat və qanunvericilik olmadığı üçün sözügedən tədqiqat bu sahə üzrə yeganə elmi ədəbiyyat sayıla bilər.

**Açar sözlər:** kriptovalyutaların mübadilə əməliyyatları, AML, KYC, hüquqi tənzimləmələr, requlativ mühit.

## G İ R İ Ş

Bitcoin kriptovalyutası blokçeyn texnologiyasından istifadə etməklə məxfilik funksiyasını özündə daşıyan mərkəzləşdirilməmiş aktiv növüdür. Müəssisələr tərəfindən müxtəlif yollarla kriptovalyutaların əldə edilməsi həyata keçirilə bilər. Xarici ölkələr kriptovalyuta mü-

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

badiləsi ilə məşğul olan şirkətlər üçün qanunvericilik bazasının yaradılması üzrə müəyyən addımlar atmışdırlar. Artıq kriptovalyuta əldə etmək istəyən müəssisələr Avropa və ABŞ timsalında müxtəlif tənzimləmələr və tələbləri yerinə yetirməklə platformalardan rəqəmsal aktivləri əldə edə bilərlər. **Platforma dedikdə, kriptovalyutaların digər rəqəmsal aktivlərlə, kriptovalyutalarla və ənənəvi pul vasitələri ilə mübadilə edildiyi rəqəmsal bazarlar nəzərdə tutulur. Binance, Kraken, Coinbase, Gemini** və s. platformaları misal göstərmək olar. Təbii ki, platformaların çoxluq təşkil etməsi prosesləri mürəkkəbləşdirsə də, böyük şirkətlərin mövcudluğu ilə geniş həcmdə kripto-aktivlərin mübadilə proseslərinin təsdiqlənməsi mümkün olur. ***Kriptovalyutaların*** mərkəzləşdirilməmiş platformaları və ya mayninq proseslərini (***alqoritmik məsələləri həll edərək blokçeyn kimi texnologiyalardan kriptovalyuta əldə edilməsi əməliyyatı)*** izləmək mümkün olmasa da, mərkəzləşdirilmiş platformaların yurisdiksiyaya uyğunlaşdırılması kriptovalyuta bazarı üzrə ümumi əməliyyatların bir hissəsinin tənzimlənməsinə imkan yaratmışdır:

***Cədvəl 1.***

**Binance-da bitcoin dövriyyəsinin illər üzrə müqayisəsi - milyard USD ilə**

| 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024/8 |
|---|---|---|---|---|---|
| **İllik dövriyyə göstəriciləri** | | | | | |
| 401 | 1 071 | 9 580 | 7 700 | 7 800 | 6 750 |
| **Baza ilinə nəzərən artım göstəriciləri** | | | | | |
| 100% | 267% | 2389% | 1920% | 1945% | 1683% |
| **Günlük dövriyyəsi göstəriciləri** | | | | | |
| 1,10 | 2,93 | 26,25 | 21,10 | 21,37 | 27,55 |
| **Baza ilinə nəzərən artım göstəriciləri** | | | | | |
| 100% | 267% | 2389% | 1920% | 1945% | 2508% |

***Mənbə: Binance platformasının hesabatları, süni intellekt və digər mənbələrə əsasən cədvəl tərtib edilmişdir.***

Cədvələ əsasən kriptovalyuta ***dövriyyələrinin*** illər üzrə artımını müşahidə etmək mümkündür. 2019-cu ilin göstəricisi baza ili kimi qəbul edilmişdir. Ən böyük göstərici ***illər üzrə 2021-ci ilə*** aiddir. Baza ilinə əsasən 23.89 dəfə artım müşahidə edilir. 2024-cü ilin məlumatları 8 ayı əhatə etdiyi üçün cədvəldə günlərə əsasən artım da hesablanmışdır. Məlum olur ki, günlük məlumatlara əsasən ***ən böyük göstərici 2024-cü ilə aiddir*** və baza ilinə nisbətdə 25 dəfə artım mövcuddur. Təbii ki, artım həm kriptovalyutaların dəyərində olan qiymət artımına, həm də onların cəmiyyət arasında artan nüfuzuna əsasən baş verir. 2021-ci ilin böyük artım sıçrayışı isə kriptovalyutaların dəyərinin artması və Binance, Coinbase kimi platformaların tam işlək vəziyyətə gəlməsi ilə əlaqədardır. Cədvəldən müşahidə edilən rəsmi dövriyyə üzrə artım tempi kriptovalyuta bazarı üzrə nisbətən tənzimlənməyə imkan yaratmaqdadır. Növbəti illərdə mərkəzləşdirilmiş platformaların sayının artması ilə requlativ mühitin daha da təkmilləşdirilməsi gözlənilir. Qanunvericilik prosedurlarının gözlənilməsi halında kripto-aktivlərin maliyyə hesabatlarında uçota alınması, onlardan aktiv kimi rəsmi şəkildə istifadə edilməsi üzrə hüquqi baza formalaşdırılmaqdadır.

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

**Tədqiqatın əsas məzmunu**

Dünya bazarında ***kriptovalyuta əməliyyatlarının*** ilbəil surətlə yayılması və inkişaf olunması qloballaşan iqtisadi və maliyyə münasibətlərinə əhəmiyyətli təsir edən rəqəmsal texnologiyalarının tətbiqi səviyyəsi ilə əlaqələndirmək olar.

*Cədvəl 2.*

**2023-cü ildə Kriptovalyuta istifadəçilərinin ölkələr üzrə sayı**

| 2023 | Populasiya | İstifadəçi sayı | % ilə göstərici |
|---|---|---|---|
| ABŞ | 339 996 563 | 52 888 108 | 16% |
| BK | 67 736 802 | 3 888 092 | 6% |
| Yaponiya | 123 294 513 | 5 096 970 | 4% |
| Hindistan | 1 428 627 663 | 93 537 015 | 7% |
| Cənubi Koreya | 51 784 059 | 2 120 185 | 4% |
| Brazilya | 216 422 446 | 25 955 176 | 12% |
| İtaliya | 58 870 762 | 1 469 892 | 2% |
| Rusiya | 144 444 359 | 8 749 780 | 6% |
| Almaniya | 83 294 633 | 4 814 430 | 6% |
| Belarus | 9 498 238 | 285 325 | 3% |
| Gürcüstan | 3 728 282 | 89 055 | 2% |
| Türkiyə | 85 816 199 | 4 825 626 | 6% |
| İran | 89 172 767 | 12 000 000 | 13% |
| Çin | 1 425 671 352 | 59 134 683 | 4% |
| Azərbaycan | 10 412 651 | 121 397 | 1% |
| **Total ölkələr üzrə** | **8 091 734 930** | **420 000 000** | **5,2%** |

***Mənbə: https://www.triple-a.io/cryptocurrency-ownership-data saytından əldə edilən məlumatlara əsasən müəlliflər tərəfindən hazırlanmışdır.***

Cədvəldən göründüyü kimi, internet resurslarından yalnız bu əməliyyatlarla bağlı fəaliyyətini quran istifadəçilərin sayı artıq 2024-cü ildə 420 milyon insana çatmışdır, bu isə ümumi əhali sayının 5,2% hissəsini təşkil edir. İstifadəçi sayının çoxluğu ilə reqlasiyaların formalaşdırılması arasında düz korrelyasiya müşahidə olunur. ABŞ, BK, Yaponiya, Almaniya, Cənubi Koreya, Brazilya. Hindistan kimi ölkələrdə kriptovalyutaların tənzimlənməsinə dair müvafiq qanunvericilik aktları qəbul edilmişdir [10].

Ən inkişaf etmiş reqlyasiyalar ABŞ, Avropa ölkələri, Birləşmiş Krallıq, Yaponiyada formalaşdırılmışdır. Digər ölkələrdə isə requlativ mühit üzrə çatışmazlıqlar mövcuddur. Kriptovalyuta almaq niyyəti olan müəssisələrin hansı reqlasiyalara istinad etməsi qaranlıq qalan məqamlardan hesab edilməkdədir. ***Kriptovalyuta mübadiləsi*** üzrə hüquqi qaydalar dinamik və

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

dəyişkəndir. Hər ölkənin fərqli qanunvericiliyinin olmasına baxmayaraq, müəyyən tələblər mövcuddur ki, bu tələblər hər bir kriptovalyuta mübadiləsi ilə məşğul olan şirkətlər üçün keçərlidir. Qanunvericilik stukturu formalaşdırmış ölkələr kriptovalyuta istifadəçilərinin müəyyən orqanlarda qeydiyyatdan keçməsini və lisenziya əldə etməsini tələb etməkdədir. Kriptovalyutalar hüquqi cəhətləri tam aydınlaşmamış bir aktiv növü olduğu üçün onların illeqal işlərdə, terrorizmin maliyyələşdirilməsində, çirkli pulların yuyulmasında istifadə edilməsi ehtimalı vardır. Bu səbəbdən hər bir ölkə kriptovalyuta mübadiləsi ilə məşğul olan müəssisələrdən "Çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirləri"nə (bundan sonra **AML və ya ÇPY-ə qarşı tədbirlər**) və **"Know Your Customer"** (bundan sonra **KYC**) requlasiyalarına əməl etməsi tələb edilməkdədir. Avropa və ABŞ timsalında kriptovalyutalardan leqal olmuyan sahələrdə istifadə edilməməsi üçün barierlər formalaşdırılmaqdadır. Sadalananlara əsasən məqalədə kriptovalyutalar üzrə qanunvericilik bazasının yaradılmasında inkişaf yolu keçmiş olan 2 ölkənin yurisdiksiyası təhlil edilmişdir:

1. Amerika Birləşmiş Ştatları;
2. Birləşmiş Krallıq.

***ABŞ qanunvericilik bazası üzrə istiqamətlər:***

Kriptovalyutaların istifadəsi üzrə ən geniş tədqiq edilmiş və yurisdiksiya formalaşdırmış ölkə Amerika Birləşmiş Ştatlarıdır. ABŞ-da fəaliyyət göstərən qurumlar kriptovalyuta bazarı üzrə tam tənzimlənmə həyata keçirə bilməsə də, müəyyən qanunvericilik bazası formalaşdırmışdır ki, bunun nəticəsində kriptovalyuta mübadilələrini izləmək mümkün olur və nəticədə çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi məsələlərini əngəlləmək üçün maneələr formalaşdırılır. Hal-hazırda qurumlar kriptovalyutaların tənzimlənməsi barədə qanunvericilik bazasının yaradılması məqsədilə mübarizə aparmaqdadır. Belə ki, kriptovalyutaların mərkəzləşdirilmiş olmaması və requlasiyaların tam şəkildə təşkil edilməməsi cinayətkarlığa və qanunsuz işlərin maliyyələşdirilməsinə imkan yaradır. Bu səbəbdən ABŞ-da requlasiyaları formalaşdıran qurumlar kriptovalyuta mübadilələri üzrə KYC və ÇPY-ə qarşı (AML-ə qarşı) tədbirlərin həyata keçirilməsinə aid qanunvericilik bazasının yaradılması üçün səylər göstərir. Kriptovalyuta mübadiləsi ilə məşğul olan şirkətlər FİNCEN orqanından qeydiyyatdan keçərək rəqəmsal aktivlərin mübadiləsindən istifadə etmək və onları uçota almaq üçün lisenziya əldə edir. Əlavə olaraq, ABŞ-da başqa ölkələrin platformalarının fəaliyyət göstərməsinə maneə mövcud deyil.

Yeni requlasiyalar 1970-ci ildə qəbul edilmiş "Bank Secrecy Act" və 1986-cı ildə qəbul edilmiş "Money Laundering Control Act" qanunlarına istinadən təşkil edilmişdir. Əlavə olaraq, Mübadilə ilə məşğul olan müəssisələr *"Money Services Business"* və *"Money Transmitter Licence"* lisenziyalarının əldə edilməsini həyata keçirirlər. FINCEN qurumunun 2019-cu ildə qəbul etdiyi "*Application of FinCEN's Regulations to Certain Business Models Involving Convertible Virtual Currencies*", 2020-ci ildə "*Frequently Asked Questions Regarding Customer Due Diligence (CDD) Requirements for Covered Financial Institutions*" və 2023-cü ildə "*Proposal of Special Measure Regarding Convertible Virtual Currency Mixing, as a Class of Transactions of Primary Money Laundering Concern*" hesabatları ilə aşağıdakı tələblər yerinə yetirilir:

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

***Cədvəl 3.***

**ABŞ üzrə kriptovalyutaların tənzimlənmələri**

| | |
|---|---|
| a) | ***2019 hesabatının 2.1-ci bəndinə uyğun olaraq - Müştərinin kimliyinin aydınlaşdırılması - KYC:*** FİNCEN tərəfindən kriptovalyuta mübadiləsi üzrə platforma xidmətindən istifadə edən tərəflərin kimliyinin məlum edilməsi üçün proqram tələb edilməkdədir. Belə ki, mübadilə edilən qarşı tərəfin adı, doğum tarixi, əgər fiziki şəxsdirsə hökümət tərəfindən verilmiş olan təsdiqedici sənədləri, hüquqi şəxs olduqda isə şirkətin təsdiqedici sənədləri tələb edilməkdədir. Əldə edilən məlumatlarla mübadilə edən tərəflər müəyyənləşdirilir və illeqal işlərin maliyyələşdirilməsinə qarşı addımlar atılır. |
| b) | ***2019 hesabatının 2.1-ci bəndinə əsasən - Məlumatların saxlanılması:*** 180 gün ərzində kriptovalyuta mübadiləsi ilə məşğul tərəflərdən məlumatların saxlanılması qurumlar tərəfindən tələb edilir. Qanunvericilik aktlarının işləmə proseslərini yoxlamaq üçün müəyyən mərhələ və ya illər üzrə məlumatlar saxlanılır. |
| c) | ***2019 hesabatının 2.1-ci bəndinə uyğun olaraq - Təlimlərin təşkil edilməsi:*** Müəssisələr işçilərinə ÇPY-ə qarşı təlimləri təşkil etməlidir. Nəticədə müəssisənin çalışanları illeqal işlərin öncədən müəyyənləşdirilməsində aktiv şəkildə iştirak edə bilərlər. |
| d) | ***2019 hesabatının 4.2.1-ci bəndinə əsasən - Gücləndirilmiş araşdırma:*** Qərarverici orqanlar tərəfindən daha riskli tranzaksiyalar və ya böyükməbləğli mübadilələr üzrə gücləndirilmiş araşdırma prosedurları tələb edilir. Bu zaman tərəflərin kimliyi üzrə dərin araşdırmaların aparılması, mübadilə tarixçəsinin izlənilməsi və təhlil edilməsi tələb edilir. |
| e) | ***2020 hesabatının 1-ci bəndinə əsasən - Riskin ölçülməsi:*** Kriptovalyuta mübadilələri ilə məşğul olan şirkət və ya platforma periodik olaraq risk ölçülməsini həyata keçirməli, şübhəli əməliyyatları, risk yaradan müştəriləri və tranzaksiyaları sənədləşdirərək hesabatlar təqdim etməlidir. Əlavə olaraq müəyyən zaman ərzində monitorinqlər təşkil edilərək şübhəli əməliyyatları araşdırmaq tələbi mövcuddur. |
| f) | ***2023 hesabatına əsasən - Şübhəli fəaliyyət hesabatı:*** Platformalardan şübhəli əməliyyatların hesabatının təqdim edilməsi tələb edilir. Şübhəli əməliyyatlar dedikdə, çirkli pulların yuyulması və illeqal biznes fəaliyyətləri üzrə əməliyyatlar nəzərdə tutulur. Şubhəli fəaliyyət hesabatı FİNCEN-in tələbinə əsasən qurumlara təqdim edilməli və cinayətkarlığın qarşısını almaq üçün öncədən tədbirlər planı həyata keçirilməlidir. |
| g) | ***2023 hesabatına əsasən - Audit tələbi:*** Müəyyən dövr ərzində kənar audit prosesinin həyata keçirilməsi tələb edilir. Nəticədə ÇPY-ə qarşı olan təlimlər və KYC statuslarının müəyyənləşdirilməsi proseslərinin ölçülməsi baş tutur. |
| h) | ***2023 hesabatına əsasən - Məmurların təyin edilməsi:*** Mübadilə edən müəssisələr sözügedən proqramların icrasına nəzarəti təmin edəcək məsul şəxslər təyin edirlər |

***Mənbə: Müəlliflər tərəfindən sadalanan qanunvericilik aktlarına əsasən tərtib edilmişdir.***

Nəticə olaraq, ABŞ-da kriptovalyuta bazarının tənzimlənməsini 3 qurum həyata keçirir:
- "Commodity Futures Trading Commission" (CFTC);
- "Securities and Exchange Commission" (SEC);
- "Financial Crimes Enforcement Network" (FİNCEN) [5, s.1-3].

AUDİT 2024, 4 (46), səh. 5-19.
AUDIT 2024, 4 (46), pp. 5-19.
АУДИТ 2024, 4 (46), стр. 5-19.

Həmin qurumların yuxarıda sadalanan AML-ə qarşı və müştəri məlumatları üzrə KYC tələblərinə əsasən kriptovalyutalar üzrə müəyyən qanunvericilik bazası formalaşdırılmışdır ki, bunun nəticəsində qanunsuz işlərdə istifadəsi məhdudlaşdırılır. Kriptovalyutaların alınması və satılması ilə məşğul olan şirkətlər qeydiyyatdan keçməklə kripto-aktivləri bəyan edir, onlara sahib olan müəssisə kimi siyahıya alınır və hesabatlar tərtib edir. Kriptovalyutaların mübadiləsindən istifadə edən şirkətlər *"Money Service business"* lisenziyasını əldə etmək üçün qeydiyyatdan keçirlər [3, s.5]. Burada bir neçə forma üzrə məlumatlar təqdim edilir. Nəticədə əldə edilən aşağıdakı məlumatlar FİNCEN və SEC orqanlarına təqdim edilir:

- şirkətin kriptovalyutaları saxlama məqsədləri barədə detallı açıqlamalar təqdim edilir. İnvestisiya məqsədilə ilə saxlanılan aktivlər üzrə saxlama siyasəti açıqlanır;
- şirkətin ilk alışları üzrə hesabatlar və balans hesabatında tanınan aktivlərin detallı açıqlamaları təqdim edilir. Burada qiymət, xərc və say barədə məlumatlar yer alır;
- kriptovalyutaların alınması ilə bağlı proqnoz məlumatlar təqdim edilir. Alınacaq kriptovalyutaların sayı, çəkilən xərc, toplam qiymət və alınma mənbəyi açıqlanır;
- kriptovalyutaların satılması ilə bağlı məlumatların detallı açıqlamaları təqdim edilir:
- burada şirkətlərin müştəri bazası üzrə məlumatlar isə SEC tərəfindən ictimaiyyətdən gizli olaraq tələb edilə bilər. Nəticə olaraq, konfidensiallıq prinsipi gözlənilir;
- şirkətin illik maliyyə hesabatları təqdim edilir [11].

Kriptovalyuta bazarı üzrə ən böyük dövriyyəyə sahib olan Binance platformasının təsisçisi olan Changpeng Zhao ÇPY-ə qarşı olan tədbirləri yerinə yetirmədiyi üçün məsuliyyətə cəlb edilmiş və maliyyə sanksiyaları ilə üzləşmişdir. Həmin platforma 4,3 milyard USD cərimə edilmişdir [6, s.1-4]. Kriptovalyuta bazarı üzrə çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi məsələləri üzrə kifayət qədər çox cinayət hadisələri baş vermişdir. 2021-ci ilin ilk 6 ayında kriptovalyuta mübadilələri üzrə illeqal işlərdə istifadə edilən 681 milyon dollar vəsait aşkarlanmışdır. SEC və digər qurumlar əldə edilən hesabatlar vasitəsilə kripto-aktivlər üzrə şübhəli əməliyyatları araşdırır və hər hansı qanunsuz mübadilələri məsuliyyətə cəlb edirlər. 2019-2023-cü illər arasında bir neçə çirkli pulların yuyulması problemləri kriptovalyutalar üzrə hələ də qanunvericilik bazasında boşluqlar olduğunu sübut edir [1, s.2]:

***Cədvəl 4.***

**ABŞ-da kriptovalyuta şirkətləri üzrə qaydaların gözlənilməməsi**

| Şirkətlər | Cərimələyən qurum | Tarix | Səbəbi | Cərimə USD |
|---|---|---|---|---|
| Binance | SEC və CFTC | 2023 | Müştərilərin KYC məlumatlarının əldə edilməsində boşluqlar və mübadilələr. | 4.3 mlrd. |
| BitMEX | FinCEN | 2021 | BSA üzrə qeydiyyat tələbinin pozulması. | 100 mln. |
| Bitpay | New York SDFC | 2023 | Sanksiya altında olan ölkələr üzrə əməliyyatların asanlaşdırılması və tədbirlərin icra edilməməsi. | 507 375 |
| Coinbase | | 2023 | Şübhəli əməliyyatların izlənilməməsi. | 50 mln. |
| Bittrex | FinCEN və OFAC | 2022 | Şübhəli əməliyyatların bildirilməməsi və AML tədbirlərinin icra edilməməsi. | 53 mln. |
| Helix | FinCEN | 2019 | BSA üzrə qeydiyyat tələbinin pozulması, MSB lisenziyası əldə edilmədən mübadilələrin aparılması, AML proqramlarının icra edilməməsi. | 60 mln. |

***Mənbə: Cədvəl https://www.wsgr.com/en/ saytından əldə edilən məlumatlara əsasən tərtib edilmişdir.***

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

Sadalanan tədbirlərə baxmayaraq, cədvələ əsasən kriptovalyutalarla olan mübadilələrin tənzimlənməsi üçün boşluqların aradan qaldırılması vacibdir. Binance platforması timsalında olan hadisələr tənzimləmələrin daha ciddi şəkildə təşkil edilməsini zəruri edir. SEC tərəfindən kriptovalyutalara səhm kimi, CFTC tərəfindən isə əmtəə kimi yanaşılır. Fərqli yanaşmalara əsasən bitcoin kriptovalyutasının tənzimlənməsində həm SEC, həm də CFTC tərəfindən addımlar atılır. Bu səbəbdən vahid orqan tərəfindən tənzimləmələrin həyata keçirilməsi ləngiyir. Nəticədə, kriptovalyutaların ABŞ-da bir neçə qurum tərəfindən tənzimlənməsi əlavə vaxt itkisinə, maraqların toqquşmasına və qaydaların zidliyinə yol açmaqdadır. Bundan başqa qərarverici orqanlar arasında gedən mübarizə, ÇPY və terorizmin maliyyələşdirilməsi hallarının baş verməsi, bir neçə qurumun qərarverici orqan qismində çıxış etməsi, requlasiyaların vaxt aparan və resurs tələb edən olması qanunvericiliyin yetərli olmamasına bir işarədir. Bu səbəbdən bir qurum üzrə tənzimlənmənin həyata keçirilməsi məqsədəuyğundur. Kriptovalyuta mayninqi ilə məşğul olan fiziki və hüquqi şəxslər də həmçinin qurumlarda qeydiyyatdan keçməlidirlər. Hazırda mayninq prosesinin izlənməsində mexanizm formalaşdırılmayıb.

***Birləşmiş Krallıq qanunvericilik bazası üzrə istiqamətlər:***

Birləşmiş Krallıq da kriptovalyutalardan leqal şəkildə istifadə edən rəqəmsal mühiti formalaşdırır. Belə ki, Birləşmiş Krallıq vətəndaşlarına xidmət göstərən FTX kriptovalyuta birjasının iflasından sonra hökümət tərəfindən bazar üzrə tənzimlənmiş mühit yaradılmasına çalışır. FTX kriptovalyutasının iflas etmə səbəbi kimi isə, müştərilərin aktivlərinin şirkət tərəfindən qanunsuz tranzaksiyalarda istifadə edilməsi idi. Müştərilərin vəsaitlərinin riskli tranzaksiyalarda istifadə edilməsi isə tənzimləmələrdə boşluqların olmasına işarədir. Məsələ ortaya çıxdıqdan sonra kriptovalyuta bazarında qiymətlərin enməsi və şirkətin aktivlərinin dəyərinin azalması baş verdi. Nəticədə təzyiqlərə tab gətirməyərək iflasını açıqladı [12].

Sözügedən amilləri nəzərə alaraq, hökümət maliyyə risklərinin azaldılması məqsədilə Avropada qəbul edilmiş "Çirkli pulların yuyulması üzrə 5-ci direktiv"in qaydalarını və 2022-ci ildə qəbul edilmiş "Travel rule" qaydasını əsas götürərək şəffaf qanunvericilik bazasının yaradılması üzrə səylər göstərir. Birləşmiş Krallıqda kriptovalyuta bazarının tənzimlənməsi və maliyyə pozuntularının qarşısının alınması məqsədilə mübadilə platformalarına qanunvericilik aktları tətbiq edilir. Ümumi olaraq, ABŞ qanunvericiliyi kimi Birləşmiş Krallıq platformalara nəzarət vasitəsilə requlasiyaların tələblərini qorumağa çalışır. Hal-hazırda İngiltərədə fəaliyyət göstərən mübadilə platformalarına Coinbase, Kraken, Crypto.com, Gemini və.s platformaları misal göstərmək olar [7]. **ABŞ-da olduğu kimi həmin platformaların əyani olaraq ölkədə ofisinin olması tələb edilmir.** Daha sərt tənzimləmələr edilən ölkələr ofisin açılmasını tələb edir. **Misal kimi Almaniya, Cənubi Koreya, Yaponiyanı misal göstərmək olar [9].**

Hökümətin əsas məqsədi məlumatlarını mühafizə etmək, sağlam investisiya mühiti formalaşdırmaq, vergi obyektini təyin etmək, maliyyə pozuntularının qarşısını almaq, rəqəmsal maliyyə bazarlarının inkişafını təşviq etməkdir. Bu səbəbdən 5-ci direktivin tənzimləmələri əsas götürülərək Birləşmiş Krallıqda kriptovalyuta bazarı üzrə ÇPY-ə qarşı tədbirlərin icrası və "Know your customer" statuslarının bəlli olması üçün ciddi addımlar və requlasiyalar tətbiq edilir. Kriptovalyuta mübadiləsi ilə məşğul olan şirkətlər **"Financial Conduct Authority"** qurumundan qeydiyyatdan keçməli və tələb edilən hesabatları təqdim etməlidir.

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

***Sxem 1.***

**Kriptovalyuta tənzimləmələrinin prosesləri üzrə ardıcıllıq**




***Mənbə: Müəlliflər tərəfindən əldə edilən məlumatlara əsasən hazırlanmışdır.***

FCA qurumundan qeydiyyatdan keçmə tələbi 2020-ci ildən qüvvədədir. Sözügedən qurum HM Treasury (HMT) və İngiltərə Mərkəzi Bankı tərəfindən dəstəklənməkdədir və requlasiyaların formalaşdırılmasında FSA başda olmaqla hər üç qurumun iştirakını müşahidə etmək mümkündür [4, s.1]. FSA tərəfindən kriptovalyuta bazarının iştirakçılarına requlasiyalar tətbiq edilir və bu requlasiyalara nəzarət vasitəsilə bazar üzrə maliyyə pozuntularının qarşısı alınır [2, s.1]. Kripto-aktivlərin mübadiləsi ilə məşğul olan şirkətlər ABŞ-da olduğu kimi qeydiyyata alınaraq lisenziya əldə edirlər. Tələb edilən hesabatların təqdim edilməsi ilə maliyyə mühitinin qorunması həyata keçirilir. Məlumatlar olmadığı təqdirdə mübadilə platforması tərəflər arasında tranzaksiyanı həyata keçirmir. Məlumatlar təqdim edilmədən əməliyyat baş tutduqda maliyyə sanksiyaları tətbiq edilir və ya cinayət məsuliyyətinə cəlb olunurlar. Requlasiyaların gözlənilməsi ilə kripto-aktivlərə sahib olan müəssisələr üzrə onların uçota alınmasında hüquqi baza formalaşdırılır. FCA qurumunun 2022-ci ildə qəbul etdiyi travel rule qaydası kriptovalyuta transferləri üzrə tənzimləmələrdə vacib rol oynayır. Qayda 2023-cü ilin 1 sentyabr tarixindən qüvvədədir. Həmin qaydalar “The Money Laundering and Terrorist Financing (Amendment) (No. 2) Regulation 2022” qaydalarına əsasən tərtib edilmişdir. Mübadilə tərəfləri aşağıdakı tələbləri yerinə yetirərək ÇPY-ə qarşı və KYC statusunun müəyyən edilməsinə aid tədbirlərin gözlənilməsinə xidmət edirlər:

AUDİT 2024, 4 (46), səh. 5-19.
AUDIT 2024, 4 (46), pp. 5-19.
АУДИТ 2024, 4 (46), стр. 5-19.

***Cədvəl 5.***

**Birləşmiş Krallıq üzrə kriptovalyutaların tənzimlənmələri**

| | |
|---|---|
| a) | ***Travel rule qaydasının 11-ci bəndinə əsasən – Müştərinin kimliyinin aydınlaşdırılması - KYC:*** Mübadilə şirkətinin dövlət tərəfindən təsdiqedici sənədləri, biznes plan, marketinq plan, təsisçilər və direktorlar barədə təsdiqedici sənədlər tələb edilir. |
| b) | ***Travel rule qaydasının 12-ci bəndinə əsasən - Məlumatların saxlanılması:*** Mübadilə ilə məşğul olan tərəflərin - yəni alıcı və benefisiarın məlumatları saxlanılmalı və KYC prosedurları tətbiq edilməlidir. Onların adları, hesab nömrələri və ya unikal əməliyyat identifikatoru, müştəri eyniləşdirmə nömrələri və.s məlumatlar platformalar tərəfindən saxlanılmalıdır. 1000 Avronu ötən əməliyyatlarda daha detallı informasiya tələb edilir. |
| c) | ***Travel rule qaydasının 14-ci bəndinə əsasən – Əlavə monitorinq:*** Alıcı tərəf və platforma benefisiarın fəaliyyət göstərdiyi region üzrə qaydaların gözlənilməsini periodik monitorinq etməlidir. |
| d) | ***Travel rule qaydasının 24-ci bəndinə əsasən – Risklərin ölçülməsi:*** Platforma və ya kriptovalyuta biznesi ilə məşğul olan tərəflər risk araşdırması həyata keçirməlidir. Öncədən müəyyənləşdirilən risklər hesabat kimi təqdim edilməlidir. |
| e) | ***Travel rule qaydasının 35-ci bəndinə əsasən – Əlavə təhlillərin tətbiq edilməsi:*** Mübadilə platformaları müştərilər üzrə sadələşdirilmiş və ya genişləndirilmiş təhlillər həyata keçirərək risk göstəricisini ölçməli və prosedurları yerinə yetirməlidir. Risk göstəricisi yüksəkdirsə "National Crime Agency"-ə hesabatlar təqdim edilməlidir. |
| f) | ***Travel rule qaydasının 43-cü bəndinə əsasən – Monitorinq və nəzarət:*** Platformalar monitorinq və nəzarət mexanizmasını tətbiq edilməlidir. Belə ki, şübhəli əməliyyatlar üzrə 5 il müddətinə məlumatların saxlanılması həyata keçirilməlidir. |

***Mənbə: Travel Rule qaydası əsas götürülərək müəlliflər tərəfindən hazırlanmışdır.***

Ümumiyyətlə, Kriptovalyuta bazarı üzrə qanunvericilik aktları mövcud platformalara tətbiq edilən qaydalara əsasən riayət edilir. Burada tənzimləmələr Amerikaya nisbətdə daha az sürətlə irəliləsə də, FCA qurumu tərəfindən tədbirlərin sərt baş tutmasını qeyd edə bilərik. Beləliklə, hökümət tərəfindən kriptovalyutaların leqallaşdırılması istiqamətində atılan addımlar həm requlativ mühiti formalaşdırmalı, həm də rəqəmsal iqtisadiyyata zərər verməməlidir. Təbii ki, atılan addımların müsbət və mənfi tərəfləri növbəti dövrlərdə müşahidə ediləcəkdir.

**Azərbaycanda requlasiyaların formalaşdırılması istiqamətləri üzrə təkliflər:**

Kriptovalyutaların tənzimlənməsi və onların hərəkəti ilə bağlı ABŞ və Birləşmiş Krallığın qəbul olunmuş qanunvericilik bazasının araşdırılmasından əldə olunan nəticələrindən göründüyü kimi, kriptovalyutaların mübadilə əməliyyatları üzrə requlativ mühitin formalaşdırılması qanun və tədbirlər çərçivəsində həyata keçirilməlidir. Kripto-aktivlərin əldə edilməsi və onların maliyyə hesabatlarında uçota alınması şirkətlərin şəxsi istəyi ilə bəyan edilməlidir. Həmin aktivlərin uçota alınması üçün şirkətlər qanunvericilik orqanları tərəfindən tələb edilən informasiyaları təqdim edərək əməliyyatı yerinə yetirə bilərlər. Əlavə olaraq, bank hesablarından invesitiya edilməsi və onların satılması vergi obyektini formalaşdırmalıdır. Bəyan edilən kripto-aktivlərin uçota alınması zamanı qərarverici orqan tərəfindən ÇPY-ə qarşı mübarizə tədbirləri tələb edilməlidir. Müəyyən qanunvericilik tələblərinin qüvvəyə minməsi hüquqi mühitin formalaşdırılmasına dəstək ola bilər. Tənzimləmələrin müəyyənləşdirilməsi böyük platformaların Azərbaycanda ofis açaraq fəaliyyət göstərməsinə təşviq edə bilər. Hüquqi mühitin formalaşdırılması vasitəsilə Azcoin kriptovalyutasının istifadəsi də mümkün olacaqdır.

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

Xarici və ya potensial yaradılacaq yerli kriptovalyuta mübadilə platforması üçün öncədən tənzimləyici mühit formalaşdırılması şəffaflığı artıracaq və kriptovalyuta sahəsinin inkişafına təkan verəcəkdir.

Azərbaycana gəkdikdə isə, bu istiqamətdə aparılan işlərin gedişatı aşağıdakı normativ hüquqi aktlarında öz əsini tapmışdır:

- Avropada təşkil edilən "Çirkli pulların yuyulması üzrə 5-ci direktiv" nəzdində 2023-2027-ci illər üzrə "Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə" layihəsinin həyata keçirilməsi üçün addımlar atılmışdır [8];
- Əlavə olaraq, tənzimləmələr "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanuna əsasən həyata keçirilməkdədir;
- Mərkəzi Bank tərəfindən qanunvericilik bazasının yaradılması üçün səylər göstərilməyə başlamışdır. Buna baxmayaraq, hər hansısa prosedurun tətbiq edilməsi hələlik icra edilməmişdir.

Adətən inkişaf etmiş ölkələrin tənzimləmələrində ən vacib rolu Mərkəzi Bank və Maliyyə Nazirliyinin tərkibində olan qurumlar oynamaqdadır. Azərbaycanda isə Mərkəzi Bankdan başqa digər maliyyə qurumları tərəfindən kriptovalyuta əməliyyatlarının tənzimlənməsi barədə hər hansısa bir hesabat mövcud deyil. Nəticədə, sözügüdən qanunvericilik bazası kənar iqtisadiyyatların ölkəmizə sərbəst müdaxiləsinə münbit şərait yaratdığından kriptovalyutaların tənzimlənməsi və onların dövlətçiliyə təhlükəsliyinin qorunmasına xidmət etmir. Azərbaycan üzrə kriptovalyuta əməliyyatlarının izlənilməsi ilə bağlı tənzimləmələr inkişaf etdirilməmiş və prosedurlar nəticəsiz qalmışdır. Bu isə kifayət qədər dövriyə həcmi olan iqtisadiyyatın bir sahəsi üzrə boşluq deməkdir.

Bununla yanaşı, hazırda kriptovalyuta mübadilə platformaları mövcud olmasa da, gələcəkdə onların Azərbaycanda fəaliyyət göstərməsi üçün qeyd edilən tədbirlər planının icra edilməsi mümkündür. Requlativ mühitin formalaşdırılması həmçinin xarici platformaların Azərbaycanda filial açaraq fəaliyyət göstərməsini təşviq etmək üçün bu sahədə boşluqların kifayət qədər çox olan aradan qaldırılması istiqamətində müvafiq işlərin təşkil edilməsini tələb edir. Sözügedən tədbirlərin icrası ilə şirkətlər tərəfindən kriptovalyutaların maliyyə hesabatlarında uçota alınması üzrə əsaslandırıcı qanunvericilik hüquqi bazısının yaradılması ilə bağlıdır.

Beləliklə, mübadilə platformalarının Azərbaycanda mövcud olmaması kriptovalyuta bazarı üzrə requlativ mühitin formalaşdırılmasında 2 istiqaməti labüd edir:

1. Bank sektoru üzrə tənzimləmələrə əsasən kriptovalyuta bizneslərinə həyata keçirilən investisiyaların müəyyənləşdirilməsi.
2. İnvestisiya edilən xarici platformalardan məlumatların əldə edilməsi üzrə əməkdaşlığın həyata keçirilməsi və ya Azərbaycanda xarici platformaların ofisinin açılmasının tələb edilməsi.

Hər iki istiqamət üzrə fiziki şəxslərin kriptovalyutalara investisiya etməsinin tənzimlənməsi və onların məlumatlarının əldə edilməsi üçün xarici platformalarla əməkdaşlıq edilməsi şirkətlərə nəzərən daha çətindir. Çunki, platforma və ondan istifadə edən fiziki şəxs sayı çoxdur və hər birinin məlumatlarının təhlil edilməsi qəlizdir. Kriptovalyutaların mübadilə əməliyyatlarının tənzimlənməsi məqsədilə aşağıdakı istiqamətlər üzrə addımlar atılmalıdır:

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

1-ci istiqamət üzrə: Kriptovalyutalara investisiya edən şirkətlər üzrə bank hesablarının nəzarət edilməsinə əsasən investisiya məbləğinin müəyyənləşdirilməsi üçün sistem yaradılması təklif edilir. Müəssisə və ya fiziki şəxs tərəfindən bank hesabından müəyyən kriptovalyuta alışı zamanı vəsait köçürülməsi baş verir. Həmin köçürmələrin banklar tərəfindən qeydiyyata alınması və hesabat təqdim edilməsi prosesi baş verərsə, kriptovalyutalara investisiya edən şirkətlərin müəyyənləşdirilməsi həyata keçiriləcəkdir. AML və KYC tədbirlər prosesi eyni qaydada müəssisələrdən tələb ediləcəkdir. Banklardan xarici platformalara axan investisiya üzrə hesabat tənzimləyici quruma ötürülməlidir. Bu halda şirkətlər üzrə məlumatlar qərarverici orqanda olacaq və qeydiyyat prosesi tələb ediləcəkdir. Nəticədə qərarverici qurumda qeydiyyatdan keçən və lisenziya əldə edən müəssisələr kriptovalyutaları rəsmi olaraq maliyyə hesabatlarında uçota alacaqdır. Təbii ki, tənzimlənmələr və ÇPY-ə qarşı tədbirlər icra edilməlidir.

Zəif və ya çatışmayan tərəf: Təbii ki, bank yolu ilə tənzimlənmə mayninq prosesindən əldə edilərək mübadilə platformalarında istifadə edilən kriptovalyutaların izlənməsinə imkan yaratmır. Təklif tam yetərli olmasa da, hüquqi mühitin formalaşdırılması üçün bank tranzaksiyalarının nəzarətdə saxlanılması vacibdir. Müəssisələrin kriptovalyutaları aktiv kimi uçota alması və vergi imkanlarından istifadə etməsi üçün mayninq və digər üsullarla əldə edilən kriptovalyutalar şəxsi istəyə əsasən açıqlanmalıdır.

2-ci istiqamət üzrə: İnvestisiya edilən xarici platformalarla Azərbaycanda fəaliyyət göstərən qərarverici orqanlar arasında yaranan əməkdaşlıq nəticəsində kriptovalyutalarla mübadilə əməliyyatları barədə məlumatlar platformalardan əldə edilməlidir. Bu zaman kriptovalyuta mübadilələri ilə məşğul olan müəssisələrin müəyyənləşdirilməsi və siyahıya alınması baş tutacaqdır. Nəticə etibarı ilə kriptovalyuta mübadilə əməliyyatlarının ÇPY-ə qarşı tədbirlərə uyğunluğu yoxlanılacaqdır. Bu əməkdaşlığın formalaşdırılması hal-hazırda Azərbaycanda çətin proses hesab edilir. Xarici ölkələrdə fəaliyyət göstərən platformalar məlumatların ötürülməsi ilə bağlı əməkdaşlıqdan imtina edəcəyi təqdirdə Hökümətin təsir alətləri işə düşə bilər. Belə ki, xarici platformalara investisiya edilməsi banklar vasitəsilə qadağan edilə bilər. Bu halda xarici platformalara pul vəsaitlərinin axması dayandırılacaq. Gəlir mənbəyini itirməmək üçün xarici plaformaların müştəri məlumatları üzrə məxfiliyin qorunması şərtilə maliyyə orqanlarına və tənzimləyici qurumlara ötürməsi baş tutacaqdır.

Xarici platformaların Azərbaycanda nümayəndəlik açaraq fəaliyyət göstərməsi isə digər istiqamətə nəzərən daha konservativ olacaqdır. Almaniya, Yaponiya, Sinqapur, Cənubi Koreya kimi ölkələrdə ofis və ya nümayəndəlik açılması vacib şərtdir. Bunun əksinə olaraq, platformalar izafi xərclərdən yayınmaq və rəqəmsal iqtisadiyyatın üstünlüklərindən istifadə etmək üçün online qaydada fəaliyyətə üstünlük verir. Bu səbəbdən nümayəndəliklərin açılması ikinci planda qalacaqdır. Buna baxmayaraq, məlumatların ötürülməsi ilə bağlı platformaların boyun qaçırması halında növbəti fəaliyyət zamanı nümayəndəliklərin açılması tələb edilə bilər. Xarici platformaların nümayəndəliyinin açılması iqtisadi baxımdan ölkə üçün gəlirli və daha səmərəlidir. Təbii ki, Dövlət orqanları əməkdaşlığın hansı formada olmasına qərar vərir. Binance, Coinbase, Kraken kimi ən böyük platformalarla əməkdaşlığın aparılması ilə tənzimləmələrin qüvvəyə minməsi mümkündür.

Azərbaycanda hal-hazırda kriptovalyuta mübadiləsi ilə məşğul olan platforma mövcud deyildir. Xarici platformaların Azərbaycan filialının olmaması investisiyaların bank yolu ilə xarici ölkələrə axmasına səbəb olur. Azərbaycanda sadə hüquqi mühitin formalaşdırılması xa-

AUDİT 2024, 4 (46), səh. 5-19.
AUDIT 2024, 4 (46), pp. 5-19.
АУДИТ 2024, 4 (46), стр. 5-19.

rici platformaların Azərbaycanda ofis açaraq xidmət göstərməsinə və ya yerli platformaların yaranmasına təşviq edilə bilər. Xarici ölkələrdən Azərbaycana pul vəsaitlərinin axması və investisiyaların əldə edilməsi arzuolunandır. Bu səbəbdən kriptovalyuta sahəsi üzrə ÇPY-ə qarşı tədbirlərin sərtləşdirilməsi və KYC statuslarının müəyyənləşdirilməsi üzrə tədbirlər planının hazırlanması və qüvvəyə minməsi məqsədəuyğun olacaqdır. Həmin tədbirlərin gözlənilməsi halında kriptovalyutalara sahib olan müəssisələr sahib olduqları resurslar üzrə hüququ əsas əldə edəcəkdir. Bu zaman vergi məsələləri də tənzimlənəcəkdir. Belə ki, məlumatları olan mübadilələr üzrə aktivin hansı qiymətə alınıb-satılması üzrə məlumatlar requlasiya edilmiş platformalardan əldə edilərək təsdiqələnəcək. Bu zaman mənfəət vergisinin obyekti müəyyənləşəcəkdir. Tənzimləmələr fiziki şəxslər üçün də tətbiq edilə bilər.

## YEKUN

Beləliklə, təhlil nəticəsində əldə edilən məlumatlara əsasən məlum olur ki, rəqəmsal iqtisadiyyat üzrə inkişaf etmiş ölkələr kriptovalyuta bizneslərinin inkişaf etməsi, maliyyə qaydaları gözlənilməklə investisiya mühitinin formalaşdırılması üzrə requlativ tədbirlər həyata keçirmişdir və mübadilə platformaları vasitəsilə bazarın tənzimlənməsi uğrunda səylər göstərmişdirlər. Məqalənin təhlil hissəsində hər iki ölkənin yurisdiksiyası araşdırıldı. Kripto-aktivlərin maliyyə hesabatlarında tanınması və onların qanunsuz işlərdə istifadə edilməsinin qarşısının alınması üçün hər ölkənin nisbətən oxşar qanunvericilik tədbirlərinin olması aydınlaşdırıldı. ABŞ, Birləşmiş Krallıq, Yaponiya, Cənubi Koreya, Avropa ölkələri oxşar KYC və AML-ə qarşı təbdirlər prosesi tətbiq edərək kriptovalyuta mübadilələrin izlənməsini təşkil etməkdədirlər.

Bununla yanaşı, ABŞ, Birləşmiş Krallıq, Yaponiya, Cənubi Koreya, Avropa ölkələrdə sözügedən aktivlərin hərəkəti ilə bağlı mövcud olan qanunvericiliklə tənzimlənməyən boşluqları və bu sahədə Azərbaycanda müvafiq təcrübələrin toplanmamasını nəzərə alaraq, Azərbaycanda hüquqi və fiziki şəxslərdən əldə edilən kriptovalyutalar üzrə daha təkmil və sərt dövlət siyasətinin aparılmasına dair müvafiq səlahiyyətli qurumlar tərəfindən yeni konseptual yanaşmasının hazırlanmasını məqsədəmüvafiq hesab edir və bununla bağlı aşağıdakıları təklif edirik:

1. Kriptovalyuta mübadilə əməliyyatlarının tənzimlənməsini təşkil etmək və onlara nəzarəti icra etmək üçün Qərarverici orqan müəyyənləşdirilməli və həmin qərarverici orqan tərəfindən mübadilə platformalarının ölkədə nümayəndəliyin açılması və ya digər ölkələrdəki kimi distant formada əməkdaşlığın olunmasına dair qərar qəbul edilməlidir.

2. Kriptovalyuta mübadilə əməliyyatlarını icra edən plaformalar və mübadilə edən şirkətlər üzrə lisenziyaların əldə edilməsi prosesi icra edilməlidir. Lisenziya əldə edən mübadilə platformaları və şirkətləri təyin edilmiş qərarverici orqan tərəfindən qeydiyyata alınmalıdır.

3. Qərarverici orqanlar tərəfindən mübadilə platformaları və şirkətlərdən hesabatlar tələb edilməlidir. Hesabatlarda tələb edilən informasiyalar qərarverici orqan tərəfindən müəyyənləşdirilməlidir. Hesabatlar mütəmadi olaraq qərarverici orqana təqdim edilməlidir. Fiziki şəxslər üzrə hesabatlar da platformalardan əldə edilə biləcəkdir.

4. Mübadilə platformaları əməliyyatları icra etmək üçün müştərilərin müəyyənləşdirilməsi üzrə (KYC) tədbirləri həyata keçirməlidir. Müştərilərin platformalarda qeydiyyatdan keçməsi, şəxsiyyəti təsdiq edən sənədin, digər elektron məlumatların platformalar vasitəsilə

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

tələb edilməsi (Üz-tanıma, digər sənədlər) şübhəli tranzaksiyalar zamanı effektiv rol oynayacaq və maliyyə pozuntularının qarşısını alacaqdır.

5. AML-ə qarşı tədbirlər planı icra edilməlidir. Bu tələb valyutanın çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə istifadə edilməsini məhdudlaşdıracaqdır. Əldə edilən hesabatlardan vəsaitlərin çirkli pulların yuyulmasında istifadə edilməsi ehtimalı müəyyənləşdirilməlidir.

6. Tələb edilən hesabatlara əsasən kriptovalyutaların mübadilə əməliyyatları üzrə tranzaksiyaların izlənilməsi prosesi baş tutmalıdır. Belə ki, qərarverici orqan tərəfindən müəyyən müddət ərzində tranzaksiyaların izlənilməsi tələb edilə bilər. Bu proses nəticəsində kripto-aktivlərin qeyri-leqal işlərdə istifadə edilməsi təhlükəsi müəyyənləşdirilə bilər. Müəyyənləşdirilən riskli mübadilələr isə qərarverici orqana hesabat kimi təqdim edilməlidir.

7. Mübadilə platformaları monitorinq prosesləri həyata keçirməli, risk dərəcəsini ölçməli və tənzimləyici qurumlara hesabatlar təqdim edilməlidir. Sözügedən proses nəticəsində həm kripto-aktivlərə sahib olan müəssisələrin, həm də həmin platformalar üzrə mübadilə aparan fiziki şəxslərin mübadilə prosesləri izlənəcək və tədbirlər planı icra ediləcəkdir.

8. Müəssisələrin rəqəmsal valyutaları aktiv kimi uçota alması üçün onların əldə edilməsi üsulu tənzimləyici orqanlara hesabat kimi təqdim edilməlidir. Belə ki, mayninq və digər üsullarla əldə edilən kriptovalyutalar üzrə izlənmə mümkün olmadığı üçün onların açıqlanması müəssisələr tərəfindən könüllü sürətdə baş tutmalıdır. Həmin aktivlərin gizlədilməsi halında dövlət tərəfindən sanksiyalar tətbiq edilə bilər.

9. Platformalar üzrə satışlar üzrə hesabatlar Vergi orqanlarına və digər qərarverici qurumlara təqdim edilməlidir. Hesabatın təqdim edilməsi üçün müəyyən limit təqdim edilməlidir. Məsələn, 5 000 AZN-dən yüksək məbləğli satışlar üçün vergilərin tətbiq edilə bilər.

10. KYC, AML-ə qarşı tədbirlərin icra edilməməsi, məlumatların təqdim edilməməsi halında maliyyə sanksiyaları tətbiq edilə bilər. Qanunvericilik tələblərinin yerinə yetirilməməsi lisenziyaların ləğv edilməsi və digər hüquqi yollarla da nəticələnə bilər. Hökümət icra tələblərinin pozulması hallarını nəzərə almalı və xüsusi alətlər formalaşdırmalıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Aysha Bagchi “Cryptocurrency exchange Binance pleads guilty along with CEO to money laundering charges”, 2021.
2. Financial Conduct Authority “Finalised non-handbook guidance on Cryptoasset Financial Promotions”, 2023.
3. Getid “The 2023 Guide to KYC/AML for Crypto Exchanges & Wallets”, 2022.
4. Global Legal Insights “Blockchain & Cryptocurrency Laws and Regulations 2024 | United Kingdom”, 2023.
5. Manimama “Overview of regulatory requirements for cryptocurrency companies in the U.S.”, 2023.
6. United States Securities And Exchange Commission “SEC Files 13 Charges Against Binance Entities and Founder Changpeng Zhao”, 2023.
7. Will Felton “Best Crypto Exchanges UK 2024”, 2024.
8. Azərbaycanda korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə sahəsində yeni layihəyə start verilmişdir - Council of Europe Office in Baku (coe.int).

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

9. https://rue.ee/crypto-licence/germany/
10. https://www.atlanticcouncil.org/programs/geoeconomics/center/cryptoregulationtracker
11. https://www.ecfr.gov/current/title-31/subtitle-B/chapter-X/part-1022/subpart-C/section-1022.380
12. https://www.investopedia.com/what-went-wrong-with-ftx-6828447
13. https://www.triple-a.io/cryptocurrency-ownership-data
14. https://www.wsgr.com/en/insights/beware-increasingly-aggressive-enforcement-actions-in-the-crypto-asset-industry-puts-companies-on-notice.html

*Elkhan Orkhan Jafarov,*
*Ph.D. (Econ.),*
*Associate Professor of the Department of*
*"Economics and Technological Sciences"*
*of Azerbaijan State University of Economics (UNEC)*
*E-mail: elkhan.jafarov@inbox.ru;*

*Sultan Gurban Niftaliyev,*
*Ph.D. Student,*
*Azerbaijan State University of Economics (UNEC)*
*E-mail: sultanniftaliyev95@gmail.com*
*© E.O. Jafarov, S.G. Niftaliyev, 2024*

# SOME ISSUES OF REGULATING THE ACCOUNTING OF CRYPTOCURRENCIES

## A B S T R A C T

**The purpose of the research** - is to propose directions for creating legal regulation of cryptocurrency exchange transactions in Azerbaijan.

**The methodology of the research** - the experience accumulated in the USA and Great Britain on cryptocurrency exchange transactions was studied through comparative analysis and other methods.

**The practical importance of the research** - cryptocurrency exchange transactions are one of the main tools stimulating the development of financial relations in the context of globalization of the world capital market.

**The results of the research** - based on the experience gained from cryptocurrency transactions in the USA and Great Britain and their development paths in Azerbaijan were determined.

**The originality and scientific novelty of the research -** since there is no literature and legislation on cryptocurrency exchange transactions in Azerbaijan, the study can be considered the only scientific literature in this field.

**Keywords:** cryptocurrency exchange operations, AML, KYC, legal regulations, regulatory environment.

**AUDİT 2024, 4 (46), səh. 5-19.**
**AUDIT 2024, 4 (46), pp. 5-19.**
**АУДИТ 2024, 4 (46), стр. 5-19.**

*Джафаров Эльхан Орхан оглы,*
*кандидат экономических наук,*
*доцент кафедры*
*"Экономика и технологические науки"*
*Азербайджанского Государственного*
*Экономического Университета (UNEC)*
*E-mail: elkhan.jafarov@inbox.ru;*

*Нифталиев Султан Гурбан оглы,*
*докторант,*
*Азербайджанский Государственный*
*Экономический Университет (UNEC)*
*E-mail: sultanniftaliyev95@gmail.com*
*© Джафаров Э.О., Нифталиев С.Г., 2024*

# НЕКОТОРЫЕ ВОПРОСЫ РЕГУЛИРОВАНИЯ УЧЕТА КРИПТОВАЛЮТ

## Р Е З Ю М Е

**Цель исследования** – предложить направления создания правового регулирования в Азербайджане операций по обмену криптовалют.

**Методология исследования** - опыт, накопленный в США и Великобритании по операциям обмена криптовалют, был изучен посредством сравнительного анализа и других методов.

**Практическая значимость исследования** - операции по обмену криптовалют являются одним из основных инструментов, стимулирующих развитие финансовых отношений в условиях глобализации мирового рынка капитала.

**Результаты исследования** – на основе опыта, полученного по криптовалютным транзакциям в США и Великобритании, были определены пути их развития в Азербайджане.

**Оригинальность и научная новизна исследования** – поскольку в Азербайджане отсутствует литература и законодательство по обменным операциям с криптовалютами, исследование можно считать единственной научной литературой в данной области.

**Ключевые слова:** операции по обмену криптовалют, AML, KYC, правовое регулирование, нормативная база.

*Məqalə redaksiyaya daxil olmuşdur: 03.09.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 04.10.2024*
*Çapa qəbul olunmuşdur: 31.10.2024*

*Дата поступления статьи в редакцию: 03.09.2024*
*Отправлено на повторную обработку: 04.10.2024*
*Принято к печати: 31.10.2024*

*The date of the admission of the article to the editorial office: 03.09.2024*
*Send for reprocessing: 04.10.2024*
*Accepted for publication: 31.10.2024*